Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 224
(4740) CÜMƏ, 5 OKTYABR 2007-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik



# Azərbaycan tolerantlığa nümunə olan, müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığı ölkədir

## Müqəddəs Ramazan ayı münasibətilə açılan iftar süfrəsində

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi





- Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Hörmətli səfirlər!
Hörmətli xanımlar və cənablar!

Şeyx həzrətləri, ilk növbədə, mənim ünvanıma deyilən bütün xoş sözlərə görə sizə və din xadimlərinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən bundan sonra da doğma xalqımın etimadını doğrultmağa çalışacağam.

Dörd il bundan əvvəl Azərbaycan xalqı mənə öz etimadını göstərdi, ölkəmizin ən yüksək vəzifəsinə seçdi. Əlbəttə, o vaxt Azərbaycan xalqı yaxşı bilirdi ki, Heydər Əliyevin siyasi xətti davam etdiriləcəkdir. Amma necə, hansı formada davam etdiriləcək, uğurlar necə əldə olunacaq, ümumiyyətlə, idarəçilik üslubu hansı şəkildə inkişaf edəcək - yəqin ki, bunları bilmək mümkün deyildi. Mən çox şadam ki, dörd il ərzində görülən bütün işlər, aparılan siyasət Azərbaycanı daha da inkişaf etdirdi, ölkəmiz daha da qüdrətləndi, gücləndi, öz mövqelərini möhkəmləndirdi, ölkəmizdə vətəndaş birliyi tam şəkildə bərqərar olundu. Xalqla iqtidar arasında münasibətlər ən yüksək səviyyədədir. Bizim bütün planlarımız, nəzərdə tutduğumuz proqramlar həyatda öz əksini tapdı. Bundan sonra da biz hamımız çalışmalıyıq ki, doğma vətənimizi daha da sürətlə inkişaf etdirək, mövcud olan bütün problemləri həll edək. Elə edək ki, Azərbaycan xalqı ildən-ilə daha da yaxşı yaşasın.

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır və mən hörmətli şeyx həzrətlərinə öz minnətdarlığımı bildirmək istəyirəm ki, o, bu tədbirləri keçirir. Bundan başqa, gündəlik həyatda öz fəaliyyəti ilə Azərbaycanda dini tolerantlığın möhkəmlənməsinə çox böyük töhfə verir. Azərbaycan xalqı bunu bilir, qiymətləndirir və bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox vacibdir. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, nadir bir təcrübədir. Düzdür, biz buna öyrəşmişik və hesab edirik ki, belə də olmalıdır. Təsəvvür edə bilmərik ki, başqa cür ola bilər. Amma biz bilirik ki, başqa cür də olur. Bəzi hallarda dinlərarası münasibətlərə gərginlik gətirilir, süni şəkildə qarşılıqlı ittihamlar irəli sürülür. Bəzi hallarda müxtəlif ölkələrdə islam dini haqqında çox yanlış təsəvvür yaradılır. Biz bunun qarşısına öz təcrübəmizi qoymalıyıq, görülən işləri qoymalıyıq.

Azərbaycanın timsalında görülən işləri qoymalıyıq və bunu edirik. Bu bizim ölkəmiz üçün lazımdır, bölgə üçün lazımdır və dinlərarası münasibətlərin inkişafı, sivilizasiyalararası dialoqun möhkəmlənməsi üçün lazımdır. Azərbaycan bu sahədə öz töhfəsini verir və əminəm ki, bundan sonra da ölkəmizdə dinlərarası münasibətlər yalnız və yalnız yüksələn xətlə inkişaf edəcəkdir. Əlbəttə, bu işlərdə dövlət siyasəti və yenə də qeyd etmək istəyirəm ki, din xadimlərinin birgə fəaliyyəti çox mühüm rol oynayır. Mən, eyni zamanda, bizim yəhudi, xristian, o cümlədən katolik qardaşlarımızın fəaliyyətini də yüksək qiymətləndirmək istəyirəm. Şeyx həzrətlərinin rəhbərliyi ilə bütün bu işlər məqsədyönlü şəkildə, çox böyük dəqiqliklə, çox böyük mədəniyyətlə aparılır və Azərbaycanın inkişafında, ölkəmizin möhkəmlənməsində bunun çox böyük rolu var.

Bizim ölkəmizin çox böyük imkanları var və ildən-ilə bu imkanlar artır. İqtisadi potensial güclənir, Azərbaycanda demokratikləşmə prosesləri çox sürətlə gedir. Biz dünyaya çox sürətlə inteqrasiya edən ölkəyik. Demək olar ki, Azərbaycanda hər bir sahə inkişaf edir. Hər bir sahənin inkişafı üçün dövlət və hökumət proqramları var və bunlar icra olunur. Ancaq əgər ictimai-siyasi ab-hava yaxşı olmasa, Azərbaycanda millətlərarası münasibətlər yüksək səviyyədə olmasa, bizim uğurlarımız yarımçıq olardı. Yalnız bütün bu amillərin sintezi ölkəmizi daha da irəliyə aparacaq və bunlar bizdə var. Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, sabitlik ölkəmizin inkişafına ən böyük töhfədir. Biz görürük, o ölkələrdə ki, sabitlik pozulur, orada daim böhran hökm sürür, inkişafdan söhbət gedə bilməz, vəziyyət gərginləşir və ölkə daim ziddiyyətlər içərisindədir.

Əlbəttə, Azərbaycanda problemlər, iqtisadi, sosial problemlər var. Amma onlar aradan qaldırılır. Bundan başqa, cəmiyyəti narahat edən problemlər yoxdur. Ölkə hansı istiqamətdə inkişaf edir, düzgün istiqamətdə, yaxud da səhv istiqamətdə - bu barədə cəmiyyətdə diskussiyalar aparılmır. Bu bizim böyük nailiyyətimizdir. Yəni Azərbaycan xalqı tam şəkildə bu ideyalar ətrafında, azərbaycançılıq fəlsəfəsi ətrafında, dövlətçilik ideyaları ətrafında birləşir. Bu birlik bizim gücümüzdür və bizə, iqtidara imkan verir ki, çox sakit, rahat şəkildə öz siyasətini ardıcıl surətdə həyata təqdim etsin və Azərbaycanın hərtərəfli inkişafına nail olunsun. Biz bunu görürük. Mən din xadimlərinin bu sahədəki fəaliyyətini çox yüksək qiymətləndirirəm.

Azərbaycanda din dövlətdən ayrıdır. Bu bizim Konstitusiyamıza görə belədir. Amma, eyni zamanda, din dövlətlə birdir. Çünki bizim amalımız birdir. O da ondan ibarətdir ki, ölkəmizin müstəqilliyi daha da möhkəmlənsin. Azərbaycanda bütün sosial problemlər öz həllini tapsın, işsizlik aradan qaldırılsın, yoxsulluq aradan qaldırılsın, ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənsin, regional müstəvidə aparıcı rol oynayaq. Bu fikirlər, bu ideyalar bütün Azərbaycan xalqını birləşdirən ideyalardır.

Mən çox şadam ki, indi Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət var, çox gözəl ab-hava var. Xalqımız da gələcəyə çox böyük nikbinliklə baxır və buna əsas var. Bizim iqtisadi uğurlarımız dünyanın heç bir başqa ölkəsində heç vaxt olmamışdır. Heç bir ölkədə üç il ərzində iqtisadiyyat iki dəfə artmamışdır. Dörd il ərzində büdcə xərcləri təxminən 10 dəfə artmamışdır. Bu yaxınlarda Milli Məclisdə deputatlar gələn ilin büdcəsinə baxacaqlar, müzakirə edəcəklər və hökumət tərəfindən təklif olunan paket çox genişdir. Yəni ilkin təklif ondan ibarətdir ki, bizim icmal büdcəmiz 12 milyard dollara bərabər olsun. Beş il bundan əvvəl bizim büdcəmiz cəmi 1,5 milyard dollar idi. Yəni bu reallıqdır və özünü hər bir sahədə göstərir. Gələn il təkcə dövlət investisiya xərcləri 3 milyard dollar olacaqdır. Haraya xərclənəcək?! İnfrastruktur layihələrinə, su kəmərlərinə, elektrik stansiyalarına, qaz xətlərinə, məktəblərə, xəstəxanalara, yollara, körpülərə. Bizim bütün rayonlarımızda bu işlər davam edir.

Biz regional inkişaf proqramını dörd il bundan əvvəl qəbul etmişik. Mən əmin idim ki, biz bunu icra edəcəyik. Yadımdadır, o vaxt deyəndə ki, Azərbaycanda 600 min iş yeri yaradılacaq, bəzi hallarda buna inanmırdılar. Amma reallıq bundan ibarətdir. Hələ ki, proqramın icrası başa çatmayıb, ancaq 570 min iş yeri açılmışdır. 570 min insan işlə təmin olunmuşdur, öz ailəsinə pul gətirir. Bu iş yerləri, öz növbəsində, yeni istehsalların yaranmasına gətirib çıxarır. Yəni qeyri-neft sektoru inkişaf edir. Bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir. Yəni ki, iqtisadi sahədə bizim apardığımız siyasət özünü tam sübut edir.

Siyasi sahədə müstəqil siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir, dəstəklənir. İqtisadi güc bizə imkan verir ki, xarici siyasətimiz Azərbaycan xalqının maraqları əsasında, yalnız və yalnız bu amillər əsasında qurulur.

Sosial məsələlərin həlli müşahidə olunur və bu iş daha da sürətlə gedəcəkdir. Bir sözlə, mən Dağlıq Qarabağ problemindən başqa, Azərbaycanın qarşısında heç bir problem görmürəm. O problemi də biz həll etməyə çalışırıq və çalışacağıq. Haqq-ədalət bizim tərəfimizdədir, bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir və biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Buna şübhəm yoxdur və bunu etmək üçün mən gecə-gündüz çalışıram. Həm diplomatik səylər, həm siyasi səylər, həm xarici səfərlər, beynəlxalq təşkilatlarla əməkdaşlığımız, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və eyni zamanda, iqtisadi və hərbi güc, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması - biz bu işləri paralel şəkildə aparırıq.

Mən əminəm ki, ölkəmiz ildən-ilə möhkəmlənəcək, qüdrətlənəcəkdir. Biz öz gələcəyimizi çox aydın görürük. Azərbaycan inkişaf etmiş ölkəyə çevrilməlidir. Yəni dünyada inkişaf etmiş ölkələr o qədər də çox deyil, biz onlardan biri olmalıyıq. Bütün imkanlar var, xalqımız istedadlıdır, biliklidir, iqtisadi potensial güclənir, siyasi proseslər müsbət istiqamətdə inkişaf edir, regional mövqeyimiz möhkəmlənir, güclü sənaye potensialı yaranır.

Biz ölkəmizi müasirləşdirməliyik. Biz öz tarixi keçmişimizə, milli-mənəvi dəyərlərə bağlıyıq. Öz dinimizə, milli ənənələrimizə bağlıyıq. Bu,uzun illər, onilliklər ərzində müstəmləkə vəziyyətində yaşayanda bizi, Azərbaycan xalqını bir xalq kimi qorudu. Keçmişimiz, mədəniyyətimiz, dilimiz, dinimiz bizim tariximizdir. Amma biz gərək gələcəyə bunun əsasında baxaq. Biz gərək bütün dünyada müsbət olan yenilikləri Azərbaycana gətirək, tətbiq edək. Biz gərək gənclərimizi maarifləndirək, xarici ölkələrin aparıcı ali məktəblərinə göndərək ki, onlar orada yaxşı bilik alsınlar, ondan sonra gəlib öz doğma xalqına peşəkarlıqla xidmət etsinlər. Yəni müasirlik, çox güclü mənəvi bazanın üzərində qurulan müasirlik bizim ölkəmizin gələcəyidir. Mən bu gələcəyi çox açıq görürəm. Əminəm ki, biz buna nail olacağıq və ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. Hər bir ölkənin vətəndaşı istəyir ki, onun ölkəsində sülh, əmin-amanlıq olsun, maddi rifah olsun və insanlar rahat, yaxşı yaşasınlar, işsizlik, yoxsullar olmasın. Biz də bunu istəyirik, mən də bunu istəyirəm və bunu edirik.

Mən əziz şeyx həzrətlərinə bir daha öz məhəbbət duyğularımı bildirmək istəyirəm. O, bu gün ulu öndər haqqında danışdı. O da sirr deyil ki, məhz Heydər Əliyevlə şeyx həzrətlərinin dostluğu Azərbaycanda bu dini tolerantlığın inkişafına çox böyük təkan vermişdir. Onların dostluğu, onların arasında olan səmimi münasibət bütün cəmiyyətə öz müsbət təsirini göstəribdir. Bizim aramızda da dostluq var və bu indi yaranmayıbdır. Mən Prezident olandan əvvəl yaranıbdır. Hətta yadımdadır ki, hələ Prezident seçilməmişdən burada buna bənzər bir məclisdə olmuşdum. Mən Prezident seçiləndən sonra şeyx həzrətləri dedi ki, Siz Prezidentsiniz, yəqin gəlməzsiniz. Dedim ki, bizim dostluğumuzda heç nə dəyişməmişdir. Prezident müvəqqəti bir vəzifədir, bir müddət var, ondan sonra yoxdur. Ancaq insani münasibətlər əbədidir, dostluq əbədidir. Biləndə ki, bu dostluq ölkəmizin mənafeyinə xidmət edir, mən daha da çox sevinirəm.

Əziz dostlar, bu gözəl gündə, müqəddəs Ramazan ayında sizin hamınızı bir daha ürəkdən salamlayıram, xoşbəxtlik və cansağlığı arzulayıram. Sağ olun.

***(Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı).***

# Azərbaycan tolerantlığa nümunə olan, müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığı ölkədir

# Şeyxülislam müqəddəs Ramazan ayı münasibətilə iftar süfrəsi açmışdır

## *Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir*

**Oktyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.**

**Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.**

**Mərasimi Şeyxülislam açdı.**

### Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin çıxışı

- Bismillahir-rəhmanir-rəhim!

Zati aliləri, çox hörmətli Prezident həzrətləri!

Hörmətli din qardaşlarım!

Əziz qonaqlar!

Sizi bu gün salamlayıram, Ramazan ayında, bu müqəddəs ayda öz iqamətgahımda Sizə "Xoş gəlmisiniz!" deyirəm və Allah-təaladan xoşbəxtlik, firavanlıq arzu edirəm. Zati-aliləri, Allah-təaladan arzum budur ki, Sizin şəxsiyyətinizlə Azərbaycan xalqı firavan, əmin-amanlıqda yaşasın və ruzili olsun. Ən ümdə, ən böyük arzumuz ondan ibarətdir ki, Sizin rəhbərliyinizlə tezliklə Qarabağ torpaqları azad edilsin.Bu gün müqəddəs aydır. Sizin gəlişiniz bizə çox böyük şərəf, xoşbəxtlik və səadət bəxş etmişdir. Ramazan ayı, bu müqəddəs ay Qurani-Şərifin nazil olduğu aydır. Ruhların azad olan ayıdır. Bu ay qardaşlıq, dostluq, mərhəmət, bir-birinə kömək ayıdır. Ona görə Siz bu gün bizim süfrəmizin başında oturduğunuz, bu məclisdə iştirak etdiyiniz üçün hesab edirəm ki, bütün Azərbaycan xalqına, onun mənəviyyatına çox böyük qiymət verirsiniz. Bütün Azərbaycan müsəlmanları və dindarları Sizdən razıdırlar. İstərdim, bu gəlişinizə görə bütün müsəlmanlar, dindarlar adından Sizə, habelə qonaqlarımıza öz minnətdarlığımı bildirim.

Ramazanın əsas mahiyyətlərindən biri də insanları bir yerə cəm etmək, onlar arasında qardaşlıq, mehribançılıq yaratmaqdır. Mən deyə bilərəm ki, bu görüşün, bu süfrənin özü də rəmzi xarakter daşıyır. Əsas məqsəd bundan ibarətdir ki, Azərbaycan xalqı həmişə tolerantlığı, hörməti sevmiş, hörmət etməyi bacarmışdır. Bu gün biz bu süfrənin arxasında millətindən, dinindən asılı olmayaraq, cəm olmuşuq. Bu o deməkdir ki, Azərbaycanda tolerantlıq vardır, Azərbaycan xalqı birlikdə yaşamağı bacarır və belə bir xalqın da, inşallah, gələcəyi vardır.

Dövlətimizin qurucusu, ulu öndərimiz Heydər Əliyev həzrətləri tolerantlığın banisidir. O, müstəqil Azərbaycanı xoşbəxt görmək istəyirdi, ölkəmizin gələcəyini düşünürdü. Deyə bilərəm ki, o, mənə dostum, qardaşım deyəndə, mən də ona dostum, qardaşım kimi münasibət bəsləmişəm. İndi o, bu dünyada yoxdursa da, onun ruhu bizimlədir. Allah onun ruhunu şad eləsin. O, Azərbaycanın gələcəyi üçün öz həyatını qurban verdi, Azərbaycanın xoşbəxtliyi üçün əlindən gələni etdi. Ən müqəddəs olan bir oğlunu da Azərbaycanın xoşbəxtliyi üçün insanlara, xalqa bəxş etdi. O da Azərbaycanın gələcəyini, firavanlığını düşünərək müstəqil Azərbaycanı gələcəyə aparmaq üçün bu yolu seçdi. Əlbəttə, insanlar yaxşı ilə pisi gözəl seçirlər. Biz dindarlar da bunu çox gözəl seçirik və qiymət veririk.

Prezident həzrətləri, biz öz seçimimizi düzgün etmişik. Prezident seçkilərində bütün dindarlar Sizə səs verdilər. Onlar Sizə inanırdılar. Çünki bizə belə bir məsləhəti ulu öndərimiz Heydər Əliyev həzrətləri vermişdir. Allah ona rəhmət etsin. O bizə demişdi ki, mənə inandığınız kimi, oğlum İlham Əliyevə də inanın. Biz də Sizə, gələcəyinizə inanırıq, Sizinlə fəxr edirik.

Bu yaxınlarda xaricdə iki ölkənin dövlət başçısı ilə görüşüm oldu. Onlar müdrik dahi rəhbər kimi Sizin haqqınızda ağızdolusu danışanda yerə-göyə sığmırdım. Azərbaycanın tolerantlığı haqqında konfranslarda misal gətirirlər. Bu məni çox sevindirir. Əlbəttə, bunun səbəbkarı Sizsiniz.

Mən bu yaxınlarda İordaniyada dostum, Misirin müftisi Tantani ilə görüşdüm. O mənə Sizinlə görüşünü xatırlatdı. Dedi ki, sizin Prezidentlə görüşdüm, o, mənə Azərbaycan haqqında çox danışdı. Mən Azərbaycanı görmək istəyirəm. O, həm də mənə dedi ki, özüm üçün iqamətgah tikmirəm, amma Şeyxülislam üçün iqamətgah tikirəm. Mən buna çox sevindim. Sevinirəm ki, mənəviyyatımıza Siz bu şəkildə qiymət verirsiniz.

Əlbəttə, bu gün Azərbaycanın bu dirçəlişini, yüksəlişini, firavanlığı gözü götürməyən bəzi insanlar, qüvvələr də var. Bu qüvvələrin əsas dayaqları xaricdədir. Bunu biz bilirik. Bəzən daxildə də səslərini çıxarmaq istəyirlər. Ancaq inanın ki, onların heç bir qüvvəsi yoxdur. Onların arxasında Allah dayanmır, həqiqət dayanmır. Həqiqət Sizinlədir.

Mən istərdim bu yerdə Qurandan bir ayə gətirim. Qurani-Şərifdə buyrulur ki, insanlar bəzən Allah-təalanın çırağını, nurunu, günəşini başa düşmədən, üfürməklə söndürmək istəyirlər. O çırağı ki, mən yandırmışam, onu sən heç vaxt söndürə bilməzsən. Mən inanıram ki, Heydər Əliyevin nurunu Allah-təala yazdı və bu çıraq, inşallah, hələ yanmaqda davam edəcəkdir. O çıraq yanacaq, mən buna inanıram. Biz dindarlar buna inanırıq, bunun üçün dua edirik. Bu gün bəzi insanlar, bəzi qüvvələr əgər varsa da, onlar heç vaxt bizi doğru yoldan döndərə bilməyəcəklər. Dindarlarımız həmişə Sizinlədir və həmişə Sizinlə olacaqlar.

Sizin Azərbaycan üçün gördüyünüz işlər böyükdür. Bu gün Azərbaycana xaricdən, daxildən baxanda tikintilər, körpülər, məktəblər, mədəniyyət ocaqları görünür. Bundan başqa, Sizin mənəviyyata verdiyiniz çox böyük qiymət və göstərdiyiniz kömək nəticəsində Bakıda həm kilsə tikilib, sinaqoq tikilib, katolik kilsəsi tikilib, həm də məscidlər təmir olunur. Təzəpir məscidi bizim Azərbaycan xalqının dini mərkəzidir. Biz onun günbəzinin qızıldan olmasını birinci dəfədir görürük. Bizim həyatımızda belə bir şey olmamışdır, görməmişik. Sizin istəyinizlə, maddi-mənəvi köməyinizlə həm Bibiheybət, həm də İçərişəhər tamamilə yenidən qurulur. Azərbaycanda tolerantlıq rəmzi kimi Hacı Əjdər məscidində iki məzhəbdən olan insanlar namaz qılırlar. İndi orada çox böyük təmir işləri gedir. Təkcə Bakıda deyil, Azərbaycanın çox yerlərində mənəvi ocaqlar yüksəlir. Həmişə əllərimiz göydə Sizdən ötrü Allaha dua edirik. Əlbəttə, biz inanırıq ki, gələcək həqiqətlədir, haqladır və haqq da Sizinlədir.

Siz vədinizə əməl etdiniz. Siz söz vermişdiniz ki, gələcəyəm və gəldiniz də. Mən Sizə bu dostluğa, bu münasibətə görə əhali adından, öz adımdan, bütün müsəlmanlar adından minnətdarlığımı bildirirəm. Arzu edirəm ki, Sizi gələn il yenidən Prezident görək. Gələn il seçkilər dövrüdür və bayram o dövrə düşür. İnşallah, həmin vaxtda Sizi yenə Prezident kimi dəvət edəcəyəm və istərdim burada iştirak edəsiniz.

* * *

Sonra Şeyxülislam Ramazan bayramı münasibətilə Azərbaycan xalqına və dövlətimizin başçısına ən xoş arzularını yetirdi.

### Rus Pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının başçısı Aleksandr Atanın çıxışı

- Ali həzrətləri, möhtərəm cənab Prezident!

Çox hörmətli cənab Şeyxülislam!

Çox hörmətli Semyon Borisoviç!

Din xadimləri, hörmətli iştirakçılar!

Hazırda cəmiyyətin həyatında din amili məsələsi beynəlxalq birlikdə kəskin şəkildə qarşıda durur. Bu baxımdan Azərbaycan çox parlaq və özünəməxsus bir model yaratmışdır. Bu model əyani şəkildə təsdiq edir ki, dinlər insanları birləşdirməyə və cəmiyyətin həyatında güclü sabitləşdirici amilə çevrilməyə qabildir.

Bizim bugünkü təntənəli iftar da bunun məhz belə olmasına əyani sübutdur. Biz bu evdə ilk dəfə toplaşmamışıq, cənab Prezidentin iştirakı ilə hər dəfə əhatə dairəmiz getgedə genişlənir. Bu da ənənəvi dinlərin birləşdirici rolunun təsdiqidir.

Azərbaycanın ümummilli lideri mərhum Heydər Əliyev dini həyatın müsbət amil olmasını çox aydın dərk edir və 1990-cı illərin böhranlı problemlərinin həlli üçün bu amildən çox fəal istifadə edirdi. Bu gün biz görürük ki, Azərbaycanın gələcəyi üçün əsası Heydər Əliyev tərəfindən qoyulmuş ideyalar özünü doğruldur. Bu gün Azərbaycanda və ölkəmizin paytaxtı Bakı şəhərində,rayonlarda baş verənlər - əlbəttə, respublikada nələr baş verdiyini biz çox yaxşı bilirik - Heydər Əliyev ideyalarının gerçəkləşməsidir. Bu ideyalar öz müsbət nəticələrini verir və siz də, biz də öz həyatımızda bu nəticələrdən bəhrələnə bilirik.

Mən cənab Prezidentə dərin minnətdarlığımı bildirmək istəyirəm ki, o, öz atası və ümummilli lider Heydər Əliyevin yolunu davam etdirir və Azərbaycanda dini həyat səviyyəsi əvvəlki kimi yüksəkdir. Din xadimlərinin Azərbaycana müntəzəm səfərləri də, yeni dini obyektlərin açılması da və nəhayət, ənənəvi dinlərin nəinki dinc yanaşı mövcud ola bilməsi, həm də cəmiyyətin rifahı və inkişafı naminə çox fəal və faydalı qarşılıqlı fəaliyyətdə ola bilməsi baxımından Azərbaycanın dünya birliyi üçün nümunəyə çevrilməsi bunu təsdiqləyir.

Azərbaycana sülh və tərəqqi arzularımı bildirmək istəyirəm. Qoy, müsəlmanların müqəddəs Ramazan ayı bir daha hər bir dindar insanın Yer üzündə nə üçün yaşadığını, ulu Tanrının onu nəyə çağırdığını, cəmiyyətin inkişafına öz imkanı daxilində töhfə vermək üçün nə edə biləcəyini dərk etdiyi mərhələ olsun.

Sizin hamınıza Allahdan kömək, cənab Prezidentə isə onun nəcib və səmərəli fəaliyyətində uğurlar diləyirəm.

### Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının sədri Semyon İxiilovun çıxışı

- Ali həzrətləri, möhtərəm cənab Prezident!

Zati-müqəddəsləri Şeyxülislam!

Hörmətli yepiskop Aleksandr!

Əziz qonaqlar!

Ən əvvəl yəhudi xalqının Roş-Ha-Şana bayramı münasibətilə təbrik məktubuna görə cənab Prezidentə təşəkkür etmək istəyirəm. Bu yeni il təntənələri hələ də qeyd edilir. Bu gün növbəti bayram - Sukkot bayramı qurtarır. Bu, yəhudi xalqının böyük bayramıdır. Sabah isə Simxattor günü ilə bütün bayramlar başa çatır.

Çox sağ olun ki, Siz bunlara böyük əhəmiyyət verir və bizim xalqı təbrik edirsiniz. Bizim xalq bütün Azərbaycan xalqı ilə birlikdə çoxmillətli böyük bir ailə kimi yaşayır. Ölkəmizdə heç vaxt antisemitizm olmamışdır və Allahın köməyi ilə həmişə belə olacaqdır.

Mən demək istəyirəm ki, hörmətli cənab Prezident son vaxtlarda Azərbaycanın gələcəyi üçün çox böyük əhəmiyyət kəsb edən çoxsaylı mühüm sərəncamlar vermişdir. Mən xüsusən, gənc istedadların aşkar edilməsinə və inkişaf etdirilməsinə, qabiliyyətli gənclərin təhsil almaq üçün xarici ölkələrin aparıcı təhsil müəssisələrinə göndərilməsinə yönəlmiş sərəncamı nəzərdə tuturam. Beləliklə, Azərbaycanın gələcəyi üçün, onun sabahı üçün kadrlar yetişdirilir. Bu məni də narahat edir, çünki Sizin bildiyiniz kimi, mən nadir istedadı Allah vergisi olan 13 yaşlı azərbaycanlı bəstəkar qıza himayədarlıq edirəm.

Möhtərəm Prezidentimizin sayəsində Azərbaycanda bütün sahələrdə çox böyük işlər aparılır. Bu gün respublika nəhəng bir tikinti meydançasını xatırladır, səhiyyə, mədəniyyət, təhsil və idman obyektləri ucaldılır. Hər yerdə, sözün əsl mənasında, inqilabi dəyişikliklər baş verir.

Buna görə də, cənab Prezident, Siz təkcə Azərbaycanda deyil, həm də xaricdə, demək olar ki, bütün dünyada çox böyük hörmət və şöhrət qazanmışsınız. Yəhudi xalqının ovqatını Sizə bildirmək istəyirəm. Qarşıdakı 2008-ci il prezident seçkiləri ilə əlamətdar olacaqdır. Azərbaycanda yaşayan yəhudilər belə deyirlər: bizə başqa Prezident lazım deyil. Allaha şükür, bizim hər kəsin qeydinə layiqincə qalan Prezidentimiz vardır. Əlbəttə, problemlər də var. Lakin problem olmayan yer varmı? Axı, yaxşı deyiblər: Moskva da birdən-birə tikilməyibdir.

Bizim icmanın üzvlərinin yekdil fikri belədir: Azərbaycan Respublikasının hörmətli Prezidenti İlham Əliyevə eşq olsun!

Mən yəhudi xalqı adından bütün Azərbaycan xalqını bu müqəddəs Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm, arzum budur ki, ulu Tanrı Sizin orucunuzu və dualarınızı qəbul etsin.

Diqqətinizə görə sağ olun.

* * *

Vatikanın Qafqazdakı nümayəndəliyinin katibi Rolandas Makritskas Vatikanın Azərbaycandakı Apostol nunsisi Klaudio Qucerottinin təbrik məktubunu oxudu.

### Vatikanın Azərbaycandakı Apostol nunsisi Klaudio Qucerottinin təbriki

- Cənab Prezident!

Şeyxülislam həzrətləri!

Yepiskop Aleksandr həzrətləri!

Azərbaycan dağ yəhudilərinin dini icmasının idarə heyətinin sədri!

Hörmətli dövlət hakimiyyəti və din nümayəndələri! Hörmətli səfirlər!

Mən çox böyük sevinclə sizə Romadan, - məhz bu günlərdə orada Müqəddəs ata XVI Benediktlə görüşürəm, - müsəlman qardaşlar və bütün Azərbaycan xalqı üçün mühüm olan bu təntənəli hadisənin bütün iştirakçılarına ən xoş arzularımı və qardaşlıq salamımı göndərirəm.

Müqəddəs Ramazan ayı bizə bir daha xatırlatdı ki, hər bir insan, biz hamımız Allahın bəndələriyik və zaman, bizim şəxsi imkanlarımız, hətta bizim bədənimizin ən təbii və əhəmiyyətli təzahürləri də yalnız Ona tabedir.

Roma Papası adından sizin hamınızı təbrik etmək və Azərbaycana Allahın xeyirduasını, tərəqqi, ədalət və sülh arzularımı bildirmək istəyirəm. Biz unutmuruq ki, burada mövcud olan bütün instansiyalarla əməkdaşlıq sayəsində bu il Azərbaycanda ilk katolik kilsəsinin tikintisi ilə bağlı işlər uğurla başa çatdırılmışdır. Bu, sizin ölkənizin hüdudlarından kənarda ümumi əhəmiyyət kəsb edən simvol və nümunədir.

Bu günlərdə bir neçə televiziya reportajının köməyi ilə biz dinlərin xalqları azadlıq uğrunda mübarizəyə necə apara bilmələrinin şahidi olduq. Mömin bəndələr öz hüquqlarını tələb edir və öz duaları ilə silahın qarşısında dayanırdı. Bu, dini real həyatdan qaçmaq, zorakılığa və dözülməzliyə meyil etməyi isə dinə xas olan xüsusiyyətlər hesab edənlərə ən aydın cavabdır.

Azərbaycanda müxtəlif dinlər arasında olan qardaşlıq və qarşılıqlı hörmət münasibətləri, habelə ölkə hökumətinin yeritdiyi tolerantlıq siyasəti Qafqazda - iki qitənin qovuşduğu məkanda yerləşən, buna görə də müxtəlif xalqları və ölkələri əhatə edən, tərəqqiyə və cəmiyyətin dinc inkişafına təhlükə yaradan iğtişaşlara çox həssas olan bu regionda sülhün bərqərar ediləcəyinə qəti ümid yaradır. Mən inanıram ki, biz hamımız, müxtəlif dinlərin nümayəndələri ümumi firavanlığa öz töhfəsini verməyə çalışan ləyaqətli vətəndaşlar kimi bundan sonra da bir-birimizə hörmət və kömək edəcəyik. Biz hər hansı zorakılıq təhlükəsinin qarşısını yalnız bu yolla ala bilərik. Gəlin unutmayaq ki, tolerantlığın təntənəsi hər bir tərəqqinin mühüm şərtidir.

Qoy, bizim dualarımız Allahdan sülh diləyən çağırış olsun, gəlin inanaq ki, Allah bu çağırışı eşidəcəkdir.

Siyasi hakimiyyət orqanlarını, mədəniyyət və iqtisadiyyat sahələrinin rəhbərlərini dinin səsini eşitməyə çağırırıq. Axı, dinlər insanların rifahının qeydinə qalır, onların ən ülvi istəklərini ifadə edir. Dinlərə saymazyana, şübhə ilə, bəzən də rişxəndlə yanaşmaq - özünü bilərəkdən insan qəlbinin dərinliklərini, bəşəriyyətin bütün tarixinin və bütün sivilizasiyaların mahiyyətini anlamamağa məhkum etməkdir. Buna görə də yalnız varlığın dini ölçülərini nəzərə almağa və onlardan istifadə etməyə çalışan siyasət cəmiyyətin təməl dəyərlərini dərk etməyə qabildir. Əksinə, dini inkar edən siyasət özü-özünə zərər vurur, üstəlik, hadisələrin mahiyyətini dərindən anlamağa qabil olmayan yararsız bir şeyə çevrilir və hətta siyasətin özünün mahiyyətini təşkil edən insan şəxsiyyəti, ayrılıqda götürülmüş hər bir insanın və bütövlükdə bütün insanların rifahı naminə çalışmaq məqsədini də puç edə bilər.

Bu gün bu mühüm məsələlər barədə fikirlərimi bölüşmək imkanına görə müsəlman bacı və qardaşlara təşəkkür edirəm, sizin hamınıza və hər birinizə öz səmimi hisslərimi və dərin ehtiramımı bildirirəm.

***

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

*(Dövlətimizin başçısının nitqi qəzetin bugünkü nömrəsinin birinci səhifəsində dərc olunur).*

***

**Şeyxülislam Allahşükür PAŞAZADƏ:**

- Hörmətli Prezident həzrətləri, Siz mənim haqqımda xoş sözlər dediniz. Bayaq dediniz ki, dostluq daimidir, prezidentlik daimi deyil. Amma mən elə bilirəm, prezidentlik də daimidir.

**İlham ƏLİYEV:** Yox, sizin vəzifəniz elədir.

**Allahşükür PAŞAZADƏ:** Bizim fikrimizcə, elə hər ikisi daimidir.

Prezident həzrətləri, Allah-təala Sizdən razı olsun. Çox gözəl tövsiyələr verdiniz və elə bilirəm ki, bizim üçün,biz dindarlar üçün bu bir proqram oldu ki, gələcəkdə işlərimizi o şəkildə quraq.

Bu gün 11 ayın sultanı Ramazan ayı Quranın nazil olduğu aydır. Biz bayaq Heydər Əliyev həzrətlərindən danışdıq, bu gün onun ruhu bizimlədir. Allah Zərifə xanıma da rəhmət eləsin. Onun da zəhməti çox olubdur. Allah-təala ona da rəhmət eləsin.

İstərdim ki, Qurani-Şərifdən ayələr dinləyək, onların ruhuna dua edək. Mənim ürəyim onda sakit olacaqdır.

***

Sonra Quran oxundu, iftar süfrəsi açıldı.

İftar mərasimində xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş səfirləri, dini icmaların nümayəndələri, Milli Məclisin deputatları iştirak edirdilər.

***AzərTAc***